“Vüqar Həşimov Open - 2026”

Beynəlxalq Şahmat Turnirinin

Ə S A S N A M Ə S İ

1. Məqsəd və vəzifələr

1.1. Azərbaycanda şahmatın təbliği və inkişafı;

1.2. Şahmatçıların oyun təcrübəsinin və beynəlxalq reytinqinin artırılması, beynəlxalq normaların yerinə yetirilməsi;

2. Təşkilatçılar

2.1. Vüqar Həşimov Şahmat Fondu

2.2. Azərbaycan Şahmat Federasiyası

3. Keçirilmə yeri və tarixi

3.1. Turnir Bakı şəhərində təşkil olunacaq.

3.2. Turnir 24 iyul (qrosmeysterin abidəsinə ziyarət) - 30 iyul (son tur və bağlanış) 2026-cı il tarixlərində keçiriləcək.

4. Keçirilmə qaydaları

4.1. Yarışlar FIDE-nin oyun qaydaları əsasında keçirilir.

4.2. FIDE ID-si olan bütün şahmatçılar iştirak edə bilərlər.

4.3. Klassik və blits yarışları 9 tur, rapid yarışı isə 7 tur İsveçrə sistemi üzrə keçirilir.

4.4. Klassik yarışda oyuna nəzarət vaxtı oyunun sonunadək 45 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 30 saniyə əlavə olunmaqla (45 dəqiqə+30 saniyə/hər gedişə) nəzərdə tutulur.

4.5. Rapid yarışında oyuna nəzarət vaxtı oyunun sonunadək 10 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 3 saniyə əlavə olunmaqla (10 dəqiqə+3 saniyə/hər gedişə) nəzərdə tutulur.

4.6. Blits yarışında oyuna nəzarət vaxtı oyunun sonunadək 3 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 2 saniyə əlavə olunmaqla (3 dəqiqə+2 saniyə/hər gedişə) nəzərdə tutulur.

4.7. Klassik yarışda tura gecikmə vaxtı 15 dəqiqədir.

4.8. Xallar bərabər olarsa qalib əmsalları aşağıdakı ardıcıllığı ilə müəyyən edilir:

1. Şəxsi görüşün nəticəsi
2. Qısaldılmış Buhqolts əmsalı (-1)
3. Buhqolts əmsalı
4. Qələbələrin sayı

4.7 Yarışların püşkatması “Swiss-Manager” proqramı vasitəsi ilə aparılacaq. Nəticələr və püşkatmalar gündəlik olaraq yarışın internet səhifəsində (gashimovopen.chess.az) və www.chess-results.com saytında dərc olunacaq.

4.8 Yarışların cədvəli aşağıdakı kimidir:

Tarix	Tədbir	Saat
24 iyul 2026	Qrosmeysterin abidəsinə ziyarət	11:00
25 iyul 2026	Açılış mərasimi	10:00
	1-ci tur	10:30
	Rapid	15:30
26 iyul 2026	2-ci tur	10:30
	Blits	15:30
27 iyul 2026	3-cü tur	10:30
	4-cü tur	15:30
28 iyul 2026	5-ci tur	10:30
	6-cı tur	15:30
29 iyul 2026	7-ci tur	10:30
	8-ci tur	15:30
30 iyul 2026	9-cu tur	10:30
	Bağlanış mərasimi	15:30

5. Qeydiyyat və üzvlük haqqı

5.1. Qeydiyyat yarış elan olunduğu gündən etibarən 23 iyul 2026 saat 14:00-dək aparılır.

5.2. Qeydiyyat yalnız onlayn qaydada yarışın internet səhifəsindən (gashimovopen.chess.az) aparılır.

5.3. Klassik yarışda iştirak üçün üzvlük haqqı 100 AZN-dir

- 18 iyuldan etibarən – 150 AZN-dir

5.4. Rapid yarışında iştirak üçün üzvlük haqqı 25 AZN-dir

5.5. Blits yarışında iştirak üçün üzvlük haqqı 25 AZN-dir

5.6. Klassik turnirdə üzvlük haqqından azaddırlar:

a) Beynəlxalq qrosmeysterlər (kişilər və qadınlar)
b) Beynəlxalq ustalar (kişilər və qadınlar)
c) Beynəlxalq reytinqi 2200-dən yüksək olan qadın şahmatçılar
d) Beynəlxalq reytinqi 2400-dən yüksək şahmatçılar

6. Mükafatlandırma

6.1. Ümumi mükafat fondu **30.000** AZN təşkil edir.

6.2. Mükafat fondunun məbləği Azərbaycan Respublikasında tətbiq edilən bütün növ vergilərdən azaddır.

6.3. Bir iştirakçı mükafata layiq bir neçə yer tutarsa, yalnız 1 mükafat (ən yüksək olanını) əldə edə bilər.

6.4. Mükafatlar aşağıdakı cədvəllərə əsasən müəyyənləşdirilir:

Klassik turnir			
1	5.000 AZN	Reytinqsizlər	I – 300 AZN
2	4.000 AZN		II – 200 AZN
3	3.000 AZN		III – 100 AZN
4	2.000 AZN		
5	1.500 AZN	ELO 1401-1500	I – 300 AZN
6	1.200 AZN		II – 200 AZN
7	1.000 AZN		III – 100 AZN
8	800 AZN		
9	700 AZN	ELO 1501-1600	I – 300 AZN
10	600 AZN		II – 200 AZN
11	500 AZN		III – 100 AZN
12	400 AZN		
13	300 AZN	ELO 1601-1700	I – 300 AZN
14	200 AZN		II – 200 AZN
15	200 AZN		III – 100 AZN
		ELO 1701-1800	I – 300 AZN
			II – 200 AZN
			III – 100 AZN
		ELO 1801-1900	I – 300 AZN
			II – 200 AZN
			III – 100 AZN
		ELO 1901-2000	I – 300 AZN
			II – 200 AZN
			III – 100 AZN
		Qadınlar arasında	I – 700 AZN
			II – 500 AZN
			III – 300 AZN

Rapid	Blits
I yer – 300 AZN	I yer – 300 AZN
II yer – 200 AZN	II yer – 200 AZN
III yer – 150 AZN	III yer – 150 AZN
IV yer – 100 AZN	IV yer – 100 AZN
V yer – 100 AZN	V yer – 100 AZN
ELO 1401-1600 – 100 AZN	ELO 1401-1600 – 100 AZN
ELO 1601-1800 – 100 AZN	ELO 1601-1800 – 100 AZN
ELO 1801-2000 – 100 AZN	ELO 1801-2000 – 100 AZN
Qadınlar arasında: 1-ci yer – 150 AZN 2-ci yer – 100 AZN 3-cü yer – 50 AZN	Qadınlar arasında: 1-ci yer – 150 AZN 2-ci yer – 100 AZN 3-cü yer – 50 AZN

6.5. İki və daha çox şahmatçı eyni xal toplayarsa mükafat bölünmür, əlavə göstəricisi üstün olan iştirakçıya verilir.

7. Apellyasiya

7.1. Baş hakimin qərarlarına qarşı etirazlar Apellyasiya Komissiyasına təqdim edilə bilər. Apellyasiya Komissiyasının üzvlərini seçilməsi və təyin edilməsi Təşkilat Komitəsi tərəfindən həyata keçirilir.

7.2. Etirazlar turun bitməsindən sonra 1 (bir) saat ərzində yalnız yazılı şəkildə və müvafiq rüsumun - 200 (iki yüz) AZN ödənilməsi ilə təqdim edilə bilər.

8. Media

8.1. Festival boyunca yalnız akkreditə olunmuş media nümayəndələrinə fotoçəkiliş edilməsinə icazə verilir.

8.2. İşıq (flash) vasitəsilə fotoçəkiliş yalnız turlar başlanandan sonra ilk 5 (beş) dəqiqə ərzində mümkündür.

9. Viza

9.1. Təşkilat Komitəsi tərəfindən oyunçulara Azərbaycan Respublikasının ərazisinə daxil olmaları üçün viza alınması məsələsinin tənzimlənməsində dəstək göstərilir.

Əlaqə:
+994 50 214 83 10 Qarayeva Nərmin
Vüqar Həşimov Şahmat Fondu
E-mail: gashimovopen@chess.az Web: gashimovopen.chess.az